UOT 792.03

**Məlahət Ağayeva**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**AMEA Memarlıq və İncəsənət İnstitutu**
**AZ1073, Bakı ş., H.Cavid pr., 115**
**E-mail:** melahet-agayeva@ mail.ru

# AZƏRBAYCANDA DEMOKRATİK XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ TEATRLARIMIZDA TAMAŞAYA QOYULAN PYESLƏRİN SƏHNƏ TƏCƏSSÜMÜ

**Xülasə:**Məqalədə Azərbaycanda Demokratik Xalq Cümhuriyyəti dövründə teatrlarımızda səhnə təcəssümü tapmış N.Nərimanovun "Nadir şah Əfşar" (05.01.1918), C.Cabbarlını "Ədirnə Fəthi" (25.04.1919), İsa bəy Aşurbəylinin "Azərbay və Can" (24.10.1919), C. Məmmədquluzadənin "Ölülər" (26.03.1918), eyni zamanda, Naxçıvan teatrının səhnəsində N.Kamalın "Vətən və ya Silistra" (25.09.1918) təccəssüm tamaşalar təhlil olunur.

**Açar sözlər:** Respublika, müstəqillik, səhnə, rejissor, bəstəkar, rəssam, aktyor

28 may 1918-ci ildə Şərqdə ilk Cümhuriyyət olan Azərbaycanda Demokratik Xalq Cümhuriyyəti yarandı. Qısa müddət, cəmi 23 ay yaşamasına baxmayaraq bir çox sahələrdə yeniliklər edildi. Azərbaycanın tarixində milli özünüdərkin, milli dəyərlərin formalaşmasında müstəsna rol oynadı. İqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və teatr sahələrində mühüm işlər görüldü.

1918-ci il Azərbaycan Akademik Milli Dram Teatrının tarixində ən ziddiyyətli və ən faciəvi illərdən olmuşdu. Erməni daşnaklarının mart ayında Bakıda törətdiyi qırğınlar və fevralın 1-də Tağıyev teatrının yandırılması teatr üçün böyük bir zərbə oldu. Tağıyev teatrında çalışan aktyor truppaları pərakəndə hala düşmüş və öz fəaliyyətlərini dayandırmışdılar. Yalnız, Azərbaycanda Xalq Demokratik Cümhuriyyəti dövründə Bakıda yeni teatr truppaları yaranmağa başladı. Bu dövrdə fəaliyyətini davam etdirmiş ilktruppa "Hacıbəyli qardaşları" olmuşdur. Bu truppa tanınmış sənətkarları ətrafına toplayaraq, həftədə üç gün növbə ilə dram, komediya, opera və operetta tamaşaları göstərirdilər. Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu", "Ağa Məhəmməd şah Qacar", İsa bəy Aşurbəylinin "Azərbay və Can", Şəmsəddin Saminin "Gaveyi-ahəngdar", Cəfər Cabbarlının "Ənvər bəyin Ədirnə fəthi" kimi dram əsərləri, Üzeyir bəy Hacıbəylinin

“Arşın mal alan”, “O olmasın, bu olsun”, “Leyli və Məcnun”, Zülfüqar bəy Hacıbəylinin “Aşıq Qərib”, “Evliykən subay”, Müslüm Maqomayevin “Şah İsmayıl” kimi opera və operettaları dəfələrlə göstərilmişdir.

Azərbaycanda professional teatrın tarixi 1873-cü ilə yaransa da, yalnız Azərbaycanda Demokratik Xalq Cümhuriyyəti dövründə Dövlət Teatrı statusu aldı. Hökumətin 1918-ci il 9 oktyabr qərarına əsasən teatr işi Maarif nazirliyinin sərəncamına verildi. Eyni zamanda Cümhuriyyət dövründə 1918-ci il noyabrın 4-də Dövlət Teatrı öz pərdələrini tamaşaçıların üzünə açdı.

Bakı Müsəlman aktyorları ittifaqı 5 yanvar 1918-ci ildə Nəriman Nərimanovun “Nadir şah Əfşar” pyesini Sidqi Ruhullanın quruluşunda tamaşaçılara göstərdilər. Əsərin adı bəzi kitablarda “Nadir şah Əfşar”, bəzilərində isə “Nadir şah” gedir. Nadir şah “Əfşar” tayfasından olduğu üçün müəllif əsərin adın belə verib. Məmməd Əmin Rəsulzadə 1914-cü ildə “İqbal” qəzetində yazırdı ki, “Kitabların, bilxassə drama əsərlərinin adları qısa və muciz olmaq lüzumu nöqteyi-nəzərindən mövcud olan dəxi “Nadir şah” heç bir əlavə və “zinətə” möhtac deyildir. Bu kimi özbaşınalıqlar daima xeyrindən çox zərər yetirir. Bunlardan vaz keçilsə müvafiqdir” (6,497).

Əsas rollarda: Sidqi Ruhulla (Nadir şah), Bağır Cabbarzadə (Şah Soltan Hüseyn xan), Əhməd Qəmərli (Təhmaz şah), Hacağa Abbasov (Ədhəm xan), Mirzə Muxtar Məmmədov (Cəfər xan), Yunis Nərimanov (Rza xan), Rza Darablı (Gürcü bəy), Xəlil Hüseynov (Rzaqulu xan), Əbülhəsən Anaplı (Cavad), Hüseynbala Şərifov (Musa bəy) çıxış etmişdilər.

Bakı klubunda 1919-cu ilin fevralında göstərilən tamaşada Nadir şah obrazını Hüseyn Ərəblinski canlandırmışdı. “Azərbaycan” qəzetindən oxuyuruq ki, “Hüseyn Ərəblinskinin işdə bir gün bundan əqdəm son dəfə olmaq üzrə şəhərimizin yay klubunda iranlıların tərtib etdiyi müasamirədə nəhayət dərəcədə yüksək bir ruh ilə Nadirin son pərdədə qara basmasını təmsil edərək, hazirunun üzülməz və arası kəsilməz alqışlarına nail olduğunu gördük” (2).

Cəfər Cəfərov isə H.Ərəblinskinin Nadir şah rollarını təhlil edərək yazırdı ki, “Ərəblinskinin oynadığı Nadir şah müxtəlif cəhətli xarakter yaratmaq nöqteyi-nəzərindən olduqca qüvvətli rollardan biri idi. Onun Nadiri müxtəlif rənglərdə yaranmış bir surət idi. Tamaşaçı eyni bir simada quldur, ata, qəhrəman, sərkərdə, şah, müstəbid və məhkum bir adam görürdü” (3,128).

Eyni zamanda, 1918-ci il noyabrın 4-də Dövlət Teatrı ilk dəfə öz pərdələrini N.Nərimanovun “Nadir şah” faciəsi ilə açdı. Cümhuriyyət dövründə bir neçə dəfə müxtəlif quruluşlarda; 21 oktyabr 1918-ci ildə Sidqi Ruhullanın, 4 noyabr 1918-ci ildə Aleksandr İvanovun, 16 may 1919-cu ildə Abbasmirzə Şərifzadənin rejissorluğu ilə tamaşaya qoyulan bu əsər xalqımızı bir daha keçmişə nəzər salmağa və həmin hadisələrdən ibrət götürməyə səslədi.

Cəfər Cabbarlını “Ədirnə Fəthi” əsəri 25 aprel 1919-cu ildə AbbasmirzəŞərifzadənin quruluşunda tamaşaya qoyuldu. “Ədirnə Fəthi” əsərində Balkan müharibələri dövründə türk xalqının istiqlal mübarizəsindən bəhs olunurdu. Süjet xəttindədoğma torpaqlarını yadellilərdən qoruyan sevgililər qələmə alınmışdır. Pyesdəki Rüfət və Xalidə obrazları öz ürəklərinin səsi ilə danışır, vətən, millət, birlik ideyalarını tərənnüm edirdi.

Tamaşada əsas rollarda: Abbasmirzə Şərifzadə (Ənvər bəy), Xəlil Hüseynov (Rüfət), Sidqi Ruhulla və Mehdi bəy Hacinski (Xalid), Əhməd Qəmərli (Namiq paşa),

Şura Olenskaya (Evliya) və Rza Darablı (Mustafa Kamal) obrazlarını vətənpərvərlik, millətçilik ruhunda canlandırırdılar.

İsa bəy Aşurbəylinin istiqlal mövzusunda yazdığı "Azərbay və Can" pyesi Azərbaycan Demokratik Xalq Cümhuriyyəti dövründə böyük maraqla qarşılanmışdı. Parlament və Hökumət üzvlərinin iştirakı ilə açılan Dövlət Türk Teatrosunda (o vaxt teatr belə adlanırdı) 24 oktyabr 1919-cu ildə İsa bəy Aşurbəylinin "Azərbay və Can" adlı pyesi tamaşaya qoymuşdu. Teatrşünas Vidadi Qafarov Azərbaycan Xalq Cümhuriyyətinin teatr siyasəti adlı məruzəsində tamaşanın böyük uğurla keçdiyini söyləmişdi (8,45).

Aleksandr İvanovun quruluşçu rejissorluğu ilə göstərilən tamaşanın bədii tərtibatını Əzim Əzimzadə vermişdi. Əsas rollarda: Yeva Olenskaya, Aleksandr Olenskaya və Panfiliya Tanailidi (Azərbay), Xəlil Hüseynov və Həsən Səbri Abdullazadə (Can), Rza Darablı (Çərkəz bəy), Xəlil Hüseynov (Azər Əhməd), Kazım Kazımzadə (Nikolay), Hüseynqulu Sarabski (Ulu bəy), Bağır Cabbarzadə (Osman Midhət), Abbasmirzə Şərifzadə (Osman Nuri), Mir Paşa Sadıqov və Hacıağa Abbasov (Andrey Petroviç), Rüstəm Kazımov və Mirmahmud Kazımovski (Matvey), Əbdülhəsən Anaplı və Rza Darablı (İvan), Əlislam Dadaşov (Daşnak), Cəlil Bağdadbəyov (Övli bəy), Hüseynağa Hacıbababəyov (Qoca bəy) və Sidqi Ruhulla (Osman bəy) obrazlarını özlərinə məxsus ifatərzi ilə əks etdirmişdilər.

İngilis dramaturqu Viyam Şekspirin "Otello" faciəsi baş qəhrəmanın adı olub əsər irqçilik, qısqanclıq, xəyanət mövzusundan bəhs olunur. Pyesi Azərbaycan dilinə Haşım bəy Vəzirov tərcümə etmiş və 12 dekabr 1919-cu ildə səhnə həllini tapmışdı.

Aleksandr İvanovun quruluşunda, Əzim Əzimzadənin bədii tərtibatında göstərilən tamaşada Abbasmirzə Şərifzadə (Otello), Sidqi Ruhulla (Yaqo), Yeva Olenskaya (Dezdemona), Panfiliya Tanailidi (Emiliya), Əhməd Qəmərli (Brabansio) və Rza Darablı (Venetsiya Doju) obrazlarını canlandırmışdılar. Tənqidçi Nərminə Ağayeva o, dövrün mətbuatına istinad edərək yazır: "Teatr tənqidi onu da qeyd edirdi ki, son günlərdə bir-birinin ardınca hökumət teatrında türk aktyorları tərəfindən oynanılan tamaşalara istər səhnəcə, istər tərtbat və əlbəsəcə ciddi əhəmiyyət verilir, artistlər də öz rollarını layiqincə oynamağa çalışırlar. Teatrın tərəqqiyə doğru getdiyini bildirən tənqid yazırdı ki, "... Bu gün bizim tamaşa etdiyimiz və məmnuniyyətimizi mövqub olan "Otello" faciəsi də bu tərəqqinin bir nümunəsidir ""(7,87).

Cəlil Məmmədquluzadənin dinə, fanatizmə qarşı yazdığı "Ölülər" komediyası ilk dəfə 29 aprel 1916-cı ildə Tağıyev teatrında (indiki Musiqili Komediya teatrında) göstərildi. Böyük təsir qüvvəsi olan bu tamaşa haqqında o, dövr mətbuatında böyük məqalələr çap olundu.

C.Məmmədquluzadənin "Ölülər" komediyası Demokratik Cümhuriyyət dövründə də tamaşaya qoyuldu. Abbasmirzə Şərifzadənin quruluşunda 26 dekabr 1919-cu ildə göstərilən tamaşada Mirzağa Əliyev (İsgəndər), Məmmədəli Sidqi (Şeyx Nəsrullah), Mir Paşa Sadıqov (Şeyx Əhməd), Kazım Ziya (Hacı Həsən ağa), Bağır Cabbarzadə (Mir Bağır ağa) və Nataliya Lizina (Kərbalayı Fatma) obrazlarını tamaşaçılara təqdim etdilər. Ancaq, bəzi mənbələrdə Hacı Həsən ağa obrazını Kazım Ziyanın deyil Abbasmirzə Şərifzadənin oynadığı qeyd edilirdi.

Məmmədşah Atayev həmin dövrdə çap olunan 6 avqust 1919-cu il "Azərbaycan" qəzetində Seyid Hüseynin tamaşa haqqında yazısına istinadən yazır: "Abbasmirzə Şərifzadənin quruluşunda göstərilən bu tamaşada Şeyx Nəsrullah rolunda Məmmədəli Sidqi Əfəndi müvəffəq olmadı... Hacı Həsən rolunda Abbasmirzə Şərifzadə bəzi

mübaliğəkarlıqda bulunmasa da, qayət təbii çıxırdı. Bu gün bizim səhnəmizdə Kefli İsgəndəri yaradacaq bir artist var isə , o da Mirzağa Əliyevdir” (5,30).

Cümhuriyyəti dövründə təkcə Bakıda deyil Azərbaycanın bir çox şəhərlərində də teatr truppaları təşkil edildi. Şuşada Hacıbəyli qardaşları” truppasının filialı yaradıldı. Naxçıvan teatrında da Əbdürrəhim bəy Haqverdiyevin “Dağılan tifaq”, “Bəxtsiz cavan”, Mirzə Fətəli Axundzadənin “Hacı Qara”, Cəlil Məmmədquluzadənin “Ölülər”, Namiq Kamalın “Vətən və ya Silistra”, “Zavallı cocuq”, Üzeyir bəy Hacıbəylinin “Arşın mal alan”, Zülfüqar bəy Hacıbəylinin “Evliykən subay” əsərləri tamaşaya qoyuldu.

Rza Təhmasibin rejissorluğu ilə 26 mart 1918-ci ildə göstərilən C.Məmmədquluzadənin “Ölülər” komediyası Naxçıvanın mədəni həyatında mühüm hadisəyə çevrildi. ““Ölülər” Naxçıvan teatrının səhnəsində görünməmiş uğur qazandı. Qüdrətli aktyor Rza Təhmasibin və mollanəsrəddinçi şair Əliqulu Qəmküsarın böyük məharətlə yaratdıqları İsgəndər və Şeyx Nəsrullah obrazları Azərbaycanın teatr tarixinə qızıl hərflərlə yazılıb” (1,91).

Türk ordusunun komandanı Kazım Qarabəkir Paşanın rejissorluğu və bədii tərtibatı ilə 1918-ci il sentyabrın 25-də Namiq Kamalın “Vətən və ya Silistra” əsərini tamaşaya qoyur. ”Düzdü tamaşanın təşkilində teatrın rejissoru Rza Təhmasib və rəssamı Bəhruz Kəngərli də yaxından iştirak etmişdilər. İlk tamaşada Həsən Səfərəli-İslam, Mirhəsən Mirişli-Zəkiyə, Rza İsfəndiyarlı-Sidqi bəy və Əli Xəlilov-Abdulla çavuş rollarını oynayırlar” (4,42).

Azərbaycanda Demokratik Xalq Cümhuriyyəti dövründə teatrlarımızda tamaşaya qoyulan pyeslər xalqımızı vətənpərvərlik və müstəqillik uğrunda mübarizəyə səsləmiş, eyni zamanda teatrımızın ideya, məzmun, üslub və təşkilatçılıq cəhətdən möhkəmlənməsinə kömək etmişdi.

**Ədəbiyyat:**


1. Azərbaycanda Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, “Lider nəşriyyatı”, 2004, 440 səh.
2. “Azərbaycan” qəzeti, 6 mart 1919-cu il.
3. Cəfər Cəfərov. Azərbaycan Dram Teatrı. Bakı, Azərnəşr, 1959, 236 səh.
4. Hüseyinzadə L. Naxçıvan teatrının tarixindən. Bakı, Araz, 2002, 62 səh.
5. Məmmədşah Atayev. C. Məmmədquluzadə əsərlərinin səhnə taleyi. Bakı, İşıq, 1991, 117 səh.
6. Məmməd Əmin Rəsulzadə. Əsərləri. Bakı, Azərnəşr, 2014, 508 səh.
7. Nərminə Ağayeva. Teatr: tənqid və tənqidçilər. Bakı, Xəzər Universiteti, 2012, 357 səh.
8. Vidadi Qafarov. Azərbaycan Xalq Cümhuriyyətinin teatr siyasəti. Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XVII beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2018.



**Малахат Агаева**


**Сценическое воплощение поставленных пьес в наших театрах в период Азербайджанской ДемократическойРеспублики**

**Резюме**


В статье анализируется и исследуется сценическое воплощение таких пьес, как «Надир шах Афшар» Н.Нариманова (5.01.1918), «Адирна Фатхи» Д.Джабарлы

(25.04.1919), «Азербай и Джан» Иса бека Ашурбейли (24.10.1919), «Мертвые» Д.Мамедгулузаде (26.10.1919), а также на сцене Нахичеваньского театра (26.03.1918), «Родина или Силистра» Н.Камаля (25.09.1918), поставленных в наших театрах в период Азербайджанской Демократической Республики.

**Ключевые слова:** Республика, независимость, сцена, актёр, режиссёр, художник, композитор.

**Melahat Agayeva**

**The scene embodiment of the plays staged in our theaters in the period of the Azerbaijan People's Republic**

**Summary**

In the article are analyzed and investigated the scenic embodiment of such plays as “Nadir Shah Afshar” by N. Narimanov (05.01.1918), “Adirna Fathi” by J. Jabbarly(25.04.1919), “Azerbai and Jan” Isa Bey Ashurbeyli (24.10.1919), "Deads" by J. Mamedguluzade (26.10.1919), including on the stage of the Nakhichivan Theater "Deads" by J.Mamedguluzade (26.03.1918), "Motherland or Silistra" by N. Kamal (25.09.1918), that staged in our theaters in the period of the Azerbaijan People's Republic

**Keywords:** Republic, independence, scene, actress, editor, an artist, compositor

**Məqalənin redaksiyaya daxil olma tarixi: 04.04.2019 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.04.2019Məqalənin çapa qəbul olunma tarixi: 23.05.2019**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: müəllim Elçin CəfərovADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**